**Moskvanın və bütün Rusiyanın Patriarxı KİRİLLİN arxikeşişlərə, keşişlərə, dyakonlara, rahiblərə və Rusiya Pravoslav Kilsəsinin bütün sadiq övladlarına**

# PASXA MÜRACİƏTNAMƏSİ

**Allahın sevimli və çox müqəddəs arxikeşişlər, vicdanı təmiz keşişlər və dyakonlar, Allahı sevən rahiblər və rahibələr, əziz qardaş və bacılar!**

Dünyanın xilaskarının ölümdən sonra Zühur etməsini qeyd etdiyimiz bu böyük və gözəl Bayramda mənəvi şadlıq hissi ilə Onun qəbirdən qalxmasını xəyalən təsəvvür edərək Sizin hamınıza həyatı bərqərar edən, böyük daxili gücə, yenilməz həqiqətə və sevincə malik olan

**İSA MƏSİH ZÜHUR EDİB!**

deyə müraciət edirəm.

Həmin nursaçan pasxa gecəsində bəşəriyyətə həqiqi İlahi sevgi bağışlanmış və İlahi Atanın əbədi Oğlu insani təbiəti bütövlüklə qəbul edərək onu günahlarından xilas etmiş və cəhənnəmin dərinliklərinə daxil olub ölüm zəncirini qıraraq bizə qiymətsiz olan öz Yaradanımız və Allahımızla vəhdətdə olmaq imkanını vermişdir.

Hər kəsi və hər şeyi əhatə edən İlahi sevgini bölüşərək biz "*zəmanənin zülmət tərəfdarı olan dünya hökmdarlarına qarşı, ərşfələkdə mövcud ədavət ruhlarına qarşı* " (Yef. 6, 12) məğlubedilməz silah əldə edirik. Biz insani təbiətimizin məhdudluğunun doğurduğu qorxuya qalib gəlib zamanın istənilən çətinliklərinə mətinliklə sinə gəlmək bacarığını əldə edirik. Çünki "*sevgidə qorxu yoxdur, lakin kamil sevgi qorxuya qalib gəlir*" (1İn. 4, 18).

Təsadüfi deyil ki, İncildə Allahın Öz tərəfdarlarının ruhlandırılması, onların ruhunun möhkəmləndirilməsi məqsədilə söylədiyi "*Qorxma!*" kəlamı dəfələrlə bizim diqqətimizə çatdırılır. Gələcək, təhlükələr, görünməyən, xəyali və ya real xətərlər qarşısında qorxu bir çoxumuza məlum hissdir. Lakin Allah biz özümüz ondan üz döndərməyənə qədər hər zaman bizimlədir. Onun Ölüm üzərində qələbəsi ilə bağlı mədhi zamanı isə Xilaskar yenə hər birimizə "*Qorxma, yalnız inan!*" (Mk. 5, 36) sözləri ilə müraciət edir.

Gəlin zəmanəmizin şeytani ruhuna zidd olan davranışımızla Əbədi Həqiqətin əyani təsdiqini təmin edək. Çünki bu gün ictimai və dini azadlıq şəraitində yaşadığımıza baxmayaraq xristian əxlaq

normalarına uyğun yaşamaq cəhdi hələ də “axına qarşı” hərəkət kimi başa düşülür. Həmin cəhd zamanı insanların həyatına şüura müasir təsir vasitələrinin köməyilə təkidli və sistemli şəkildə daxil olan davranış stereotipləri və günaha haqqın qazandırılması mövqeyi ilə ixtilaf meydana gəlir.

Allaha üz tutsaq mənəvi boşluqdan və dünyada hökm sürən eqoizmdən qurtula, Zühurun nurunu görə, Səmavi Şəhərə yürüşdə onu yol göstərən kimi qəbul edə bilərik.

Qoy vahid Yevxaristiya kasasına yaxınlaşma bizim üçün əbədiyyətə doğru bu hərəkətdə güc mənbəyi olsun. Qoy Ümummüqəddəs Ruhun bərəkəti bizi gücləndirsin, qəlblərimizə sarsılmaz həmrəylik, imanda yenilməzlik, xeyirxah işlərdə müvəffəqiyyət bəxş etsin.

Məsihin Bədəninə və Qanına yaxınlaşaraq, biz, Müqəddəs Kitabın yazdığına görə, biz, *İlahi təbiətin* öz təbii vəziyyətini dəyişməyə qadir olan iştirakçısına çevrilirik (2 Pet. 1, 4). Priçastiye vasitəsilə biz Ona, bizə görə *“qul surətini qəbul edərək özünü alçaldana, insana oxşadana və görünüşcə insana çevrilənə; Özünü itaətə gətirənə, hətta ölüncəyə qədər və xaç gününə qədər itaətli olana”* oxşamaq imkanı əldə edirik (Flp.2, 7-8).

Özünü əxlaqi, mənəvi surətdə dəyişdirmə cəmiyyətin, xalqın, ölkənin dəyişməsinin başlıca təminatı və özülüdür. Hissələri təkmilləşdirmədən bütövü yaxşıya doğru dəyişmək olmaz. Bütün yaş, sosial və siyasi qruplardan olan insanların dürüst əhval-ruhiyyəsi Vətənin rifahını birbaşa müəyyənləşdirir. Tarixi Rusiyanın bütün dövlətlərinin, Kilsəmizin, nəticədə isə – Yaradanın bizə qorumaq və *“onu mühafizə etmək”* üçün bəxş etdiyi Allahın bütün yaratdıqlarının inkişaf yolu bizim həyat vektorlarımızın necə olacağından asılıdır. (Bıt 2, 15).

Mənim əzizlərim, öz dualarımla mən sizin hamınızı Qalibin Zühur etməsinə və onun cəhənnəm üzərində qələbəsinə sevinməyi və sizin gündəlik həyatınızda səadət bəxş etməyi o bir Allahdan arzu edirəm.

**İSA MƏSİH HƏQİQƏTƏN ZÜHUR EDİB!**

Amin.

**+KİRİLL,**

**MOSKVA VƏ BÜTÜN RUSİYANIN PATRİARXI**

*Moskva,*

*İsa Məsihin Pasxası*
*2012-ci il*